# *Azərbaycan dili üzrə test*

*Təlimat*

İmtahan testinin elektron bukleti qarşınızdadır. Testin maksimal balı 70-dir.

Testi yerinə yetirmək üçün sizə 4 saat vaxt verilir.

Növbəti səhifəyə keçmək və geri qayıtmaq üçün klaviaturanın üzərində ox işarələri olan klavişlərindən istifadə edə bilərsiniz.

Sizə uğurlar arzulayırıq!





# AZƏRBAYCAN DİLİ (35 BAL)

(1) **1. Hansı bənddə bütün sözlər orfoqrafik cəhətdən düzgündür?**

A) Kübar, sağ-salamat, qubar.

B) Məşhur, keçit, kəşviyyat.

C) Tədqiqat, unversal, səhv.

D) Üfüqi, minumum, tele-kanal.

(1) **2.** *Əyilməkdir ağlamağın tərs üzü,*

*Dərdi dartıb üzməyəni dərd üzür.*

**Nümunədə altından xətt çəkilmiş sözlərin kökü semantik baxımdan nədir?**

A) Həm antonim, həm sinonim.

B) Həm omonim, həm antonim.

C) Həm omonim, həm çoxmənalı söz.

D) Həm sinonim, həm çoxmənalı söz.

(1) **3.** *“Zərərsizləşdirdik”* **sözünün tərkibində işlənib:**

A) 1 leksik, 2 qrammatik şəkilçi.

B) 1 leksik, 3 qrammatik şəkilçi.

C) 3 leksik, 1 qrammatik şəkilçi.

D) 3 leksik, 2 qrammatik şəkilçi.

(1) **4.** **Nümunələrdə feilin qrammatik məna növlərindən birinə aid söz verilməyib. Həmin növə aid sözü müəyyən etməklə sıranı tamamlayın.**

*Danışıldı, çalışdı, tikdirdik, göründü, ...*

A) Baxıldı.

B) Görüşdülər.

C) Gözəlləşdi.

D) Oxuyardıq.

(1) **5. Köməkçi nitq hissələrinin işlənmə ardıcıllığını müəyyən edin.**

*Yaxşı, qoca, mən*

*Artıq əl çəkirəm ölüm hökmündən.*

*Ancaq kəsəcəyəm yazan əlini…(S.Vurğun)*

A) Qoşma, ədat, bağlayıcı.

B) Qoşma, bağlayıcı, nida.

C) Modal söz, ədat, bağlayıcı.

D) Modal söz, bağlayıcı, nida.

(1) **6. Hansı cümlədə sadə, düzəltmə və mürəkkəb zərf işlənmişdir?**

A) Çoxdan yağan qar hələ də ərimədmişdi.

B) İrəlidə gedənlər hərdənbir arxaya dönürdülər.

C) Qəzəblə dediyimiz sözləri gülə-gülə xatırlayacağıq.

D) Sabah düşmənlə yenidən üz-üzə gələcəyik.

(1) **7. Hansı cümlədə baş üzvlərin ikisi də söz birləşməsi ilə ifadə olunmuşdur?**

A) Bu cür işi başlamaq asan deyil.

B) İnsanın üstünlüyü əməyinin bəhrəsidir.

C) Məmmədxan onlara kömək etmir.

D) Sənin işinə heç kəs qarışa bilməz.

(1) **8. Hansı sıradakı bütün xüsusiyyətlər elmi üslub üçün səciyyəvidir?**

A) Aydınlıq, kütləvi anlaşıqlılıq, təsirlilik.

B) Məntiqlilik, ardıcıllıq, konkretlik.

C) Omonimlik, sinonimlik, antonimlik.

D) Təbiilik, sərbəstlik, sadəlik.

(1) **9.** *“Yolu yarı etmişdik ki, dəniz çalxalanmağa başladı”* **tabeli mürəkkəb cümləsini sadə cümləyə çevirdikdə cümlənin zərfliyi nə ilə ifadə olunar?**

A) Feili bağlama tərkibi ilə

B) Feili bağlama ilə

C) Feili sifət tərkibi ilə

D) Feili sifət ilə

(1) **10. Hansı nidadan sonra vergül qoymaq mümkündür?**

A) A bala, haraya gedirsən?

B) Ay qonşular, havada bərk şaxta var.

C) Ay uşaqlar, imtahana ciddi hazırlaşın.

D) Ey yorğun yolçu, indi haraya gedirsən?

(2) **11.** **Şagird yazdı:** *“Ana hər yeri, otaqları, həyəti, eyvanı təmizləmişdi”.*

Şagirdin hansı səhvə yol verdiyini müəyyən edin.

Bənzər səhvi etməmək üçün ona nəyi bilmək lazım olduğunu açıqlayın.

(2) **12. Şagird yazdı:** *“əqrəb”, “oynaq”, “dimdik”, “qala”* **sözləri omonimdir.**

Şagirdin dediyi fikirlə bağlı etdiyi səhvi göstərin.

Bənzər səhvi etməmək üçün ona nəyi bilmək lazım olduğunu açıqlayın.

(4) **13. Sizin məqsədiniz şəxssiz və qeyri-müəyyən şəxsli cümlələri şagirdlərə izah etməkdir.**

**I –** Şəxssiz cümlə nəyə deyilir? Cavabınızı nümunə ilə əsaslandırın.

**II –** Qeyri-müəyyən şəxsli cümlə nəyə deyilir? Cavabınızı nümunə ilə əsaslandırın.

(7) **14. Mətni oxuyun və tapşırıqları yerinə yetirin.**

***Təhsildə yeni era: Onlayn tədris***

Müasir zamanın tələblərinə uyğun olaraq distant təhsilin geniş tətbiqi daha çox insanın təhsilə cəlb olunmasına imkan verir. Bu təhsil forması klassik qiyabi forma ilə müqayisədə bir çox fərqli üstünlüklərinə görə ayrı bir sistemləşmə yaradır: tələbə və müəllim arasında intensiv əlaqə təşkil olunur.

Distant təhsilin üstünlüklərindən biri də daha az xərc çəkməklə təhsil almağa imkan verməsidir. Yəni maddi imkanı aşağı olanlara və ali məktəblərin yerləşdiyi şəhərlərdə yaşayış yeri olmayanlara, əlilliyi olanlara bu problemlər baryer olmur. Onlayn tədris zamanı təhsil müəssisələri də öz növbəsində icarə haqqına, elektrik enerjisinə və bahalı texnikaya qənaət edir, eyni vaxtda daha çox tələbəni öyrədə bilirlər.

Nəticə olaraq, bu təhsilalma forması coğrafi məsafələri, fiziki məhdudiyyətləri və sosial maneələri aradan qaldıraraq, hər kəs üçün bərabər və əlçatan öyrənmə mühiti yaradır.

**I –** Mətndə ifadə olunan əsas fikir nədir?

**II –** Mətndə təqdim olunan fikri dəstəkləmək və inkar etmək üçün arqumentlər gətirin.

**III –** Mətnə əsaslanmaqla hansı arqumentin daha çox qəbul olunduğunu və səbəbini qeyd edin.

*Yerinə yetirdiyiniz tapşırıqda dil səhvi və ya stilistik qüsur olsa, bir (1) balınız azalacaq.*

(10) **15. Şagirdin yazı işini oxuyun və aşağıdakı göstərişləri yerinə yetirin.**

**I –** Şagirdin yazı işinə I meyara əsasən bal yazın və mətndən müvafiq nümunə gətirin.

**II –** Şagirdin yazı işinə II meyara əsasən bal yazın və mətndən müvafiq nümunə gətirin.

**III – 1.** Şagirdin yazı işinə III meyara əsasən bal yazın və mətndən müvafiq nümunələr gətirin.

**2.** Hər bir səhv növünü (orfoqrafik, morfoloji, punktuativ və sintaktik) müəyyən edin.

## Qiymətləndirmə sxemi

| *N* | *Meyarlar* | *Meyarların tərifi* | *Ballar* |
|---|---|---|---|
| **I** | Düşüncəni əsaslandırma (arqumentasiya və sitat) | a) Müzakirə aydındır, arqumentlidir, arqumentlər müvafiq nümunələrə əsaslanır;<br>b) Müzakirə müəyyən qədər arqumentlidir, arqumentlər müvafiq nümunələrə əsaslanmır və faktiki səhvlər buraxılıb;<br>c) Mətn qeyri-adekvat anlaşılıb, müzakirə inandırıcı deyil, nümunələrə qeyri-adekvat istinad edilib. | 2<br>1<br>0 |
| **II** | Leksika və üslub | a) Fikir dəqiq və aydındır, yazı üslubu düzgündür, heç bir leksik səhvə yol verilməmişdir;<br>b) Fikir düzgündür, ancaq söz bazası azdır, yaxud stilistik və/və ya leksik səhvlərin sayı ikidən çox deyil;<br>c) Əsas fikir aydındır, ancaq yazının üslubu düzgün deyil, qeyri-adekvat sözlər var. | 2<br>1<br>0 |
| **III** | Orfoqrafiya, morfologiya, sintaksis və punktuasiya | a) Bu cür səhvlər üçdən çox deyil;<br>b) Bu cür səhvlər altıdan çox deyil;<br>c) Bu cür səhvlər altıdan çoxdur. | 2<br>1<br>0 |

**Şagird üçün təklif olunan tapşırıq:**

Əsl xoşbəxtlik nədir?

*Arqumentli düşüncə ilə bu fikri inkar edin və ya onunla razılaşın.*

**Şagirdin yazısı:**

Hər bir insan həyatda xoşbəxt olmaq istiyir. Lakin xoşbəxtliyin nə olduğu hər kəs üçün fərqli ola bilər. Bəziləri xoşbəxtliyi pulda, var dövlətdə və şöhrətdə görürlər. Başqaları isə xoşbəxtliyi ailədə, dostlarda və sevdiyi işlə məşğul olmaqda tapır.

Məncə, xoşbəxtlik insanın ürəyində olan bir hisdir. İnsan sahib olduqlarının qədrini biləndə və həyatından razı qalanda özünü xoşbəxt hiss edir. Xoşbəxt olmaq üçün çox varlı olmaq mütləq deyil. Bəzən sadə bir həyat sürən, amma sağlam, mehriban və ümidli olan insanlar daha xoşbəxt olurlar.

Jül Vern "Kapitan Qrantın uşaqlar" əsərində yazır:

"Harun ər-Rəşidin bir oğlu var idi. Hökümdar oğlu olmasına baxmayaraq, bu oğlan özünü bədbəxt hiss edirdi. Məsləhət üçün müraciət etdiyi dərviş ona xoşbəxt olmaq üçün xoşbəxt bir adamın köynəyini geyinməli olduğunu deyir.

Bundan sevincək olmuş şahzadə xoşbəxt adam axtarmağa yollanır. O, uzun müddət gəzib-dolaşır. Dünyanın bütün paytaxtlarına gedərək kralların, imperatorların, şahzadələrin, knyazların köynəyini geyib sınayır. Ancaq, heyhat, heç nə dəyişmir.

Nəhayət, ümidini kəsərək saraya qayıtmağı qət edir ki, birdən tarlada şən mahnı oxuyan bir əkinçi görür. Öz-özünə deyir: "Xoşbəxt adam ya budur, ya da xoşbəxtlik dünyada heç yoxdur". Şahzadə əkinçiyə yaxınlaşaraq deyir:

– Dostum, deyəsən sən çox xoşbəxtsən, öz taleyini şahzadə taleyi ilə dəyişərsənmi?

– Heç vaxt.

– Gəl sən köynəyini mənə sat!

– Köynəyimi? Mənim ki, heç köynəyim yoxdur! – deyə əkinçi cavab verir".

Nəticə olaraq demək olar ki, xoşbəxtlik uzaqda deyil. İnsan onu öz ürəyində, ailəsində və gündəlik həyatda tapa bilər. Həyata müsbət baxan və yaxşılıq edən insan həmişə xoşbəxt olmağı bacarar.

# AZƏRBAYCAN ƏDƏBİYYATI (20 BAL)

(1) **16. Hansı cərgədəki bütün janrlar şifahi xalq ədəbiyyatına aiddir?**

A) Dastan, qəzəl, holavar, sayaçı sözü.

B) Lətifə, qitə, atalar sözü, nəğmə.

C) Lətifə, nağıl, dastan, məsəl.

D) Povest, bayatı, nağıl, qoşma.

(1) **17. Azərbaycan ədəbiyyatında poema janrının əsası qoyulmuşdur:**

A) Füzuli – “Bəngü Badə”.

B) Xaqani – “Töhfətül-İraqeyn”.

C) Qul Əli – “Qisseyi-Yusif”.

D) Nizami – “Sirlər Xəzinəsi”.

(1) **18. “Nuşirəvan və bayquşların söhbəti”, “Sultan Səncər və qarı” mənzum hekayələrində Nizami Gəncəvi ibrətamiz şəkildə əks etdirir:**

A) İctimai ədaləti, şahları ədalətə çağırışı.

B) İnsanı kölə edən cəmiyyətə etirazı.

C) Şəxsiyyət azadlığını.

D) Vətənpərvərliyi, doğruçuluğu.

(1) **19. Cümləni hansı fikirlərlə tamamlamaq olar?**

*M. Füzulinin "Məni candan usandırdı…" qəzəlinin lirik qəhrəmanı …*

A) Dərdini gizli saxlaya bilmir, hamıya demək qərarına gəlir.

B) Məşuqənin cəfasından yorulsa da, yolundan dönməyi düşünmür.

C) Sevgilisini əğyara uyduğu üçün məzəmmət edir.

D) Sevgilisinə qarşı biganə olduğuna görə özünü günahlandırır.

(1) **20. Aşağıdakı xüsusiyyətlər hansı əsərə aiddir?**

*Ana dilimizdə yazılmışdır.*

*Həzəc bəhrindədir.*

*Əsərdə oğlunu dərin məhəbbətlə sevən, ancaq onu anlamayan ata obrazı yaradılmışdır.*

A) “Bəngü Badə” (M. Füzuli).

B) “Leyli və Məcnun” (M. Füzuli).

C) “Leyli və Məcnun” (N.Gəncəvi).

D) “Yeddi gözəl” (N.Gəncəvi).

(1) **21. M. P. Vaqifin Azərbaycan ədəbiyyatı tarixində yeri:**

A) Azərbaycan ədəbiyyatına maarifçi düşüncə gətirmişdir.

B) Azərbaycan ədəbiyyatına realizmin banisi kimi daxil olmuşdur.

C) İlk dəfə ictimai məzmunlu lirikaya yaradıcılığında geniş yer vermişdir.

D) Heca vəznli şeirləri ilk dəfə yazılı ədəbiyyata gətirmişdir.

(1) **22. Hansı xüsusiyyətlər Q. Zakir və S. Ə. Şirvani yaradıcılığı üçün ortaq cəhət sayıla bilər?**

A) Ədəbiyyatşünaslığa aid əsərləri vardır.

B) Həm klassik,  həm də xalq şeiri üslubunda əsərlər yazmışlar.

C) Lirik əsərlərində məhəbbətin tərənnümü əsas yer tutur.

D) Mətbuatda maarifçi şeirlərlə çıxış etmişlər.

(1) **23. “Həmzənin Qıratı qaçırması” qolunda** *“Koroğlunun igidliyinin yarısı Qıratdadır”* **deyən obraz kim idi?**

A) Bolu bəy.

B) Hasan paşa.

C) Qacar Alı.

D) Mehtər Murtuz.

(1) **24. N. Vəzirovun "Müsibəti-Fəxrəddin" əsəri ilə bağlı düzgün fikir hansıdır?**

A) Mahmud bəy atasına qardaşının intiqamını alacağına söz verir.

B) Mələk xanım intiqam hissi ilə yaşasa da, Fəxrəddinin Səadət xanımla ailə qurmaq arzusunu dəstəkləyir.

C) Rüstəm bəy neçə-neçə insanın yurdunu dağıtmasından, ölümünə səbəb olmasından qürurla söz açır.

D) Səadət xanım atasının mütərəqqi fikirlərini dəstəkləyir.

(1) **25. M. F. Axundzadənin "Aldanmış kəvakib" əsəri ilə bağlı** *uyğunsuzluğu* **seçin:**

A) Axund Səməd – hakimiyyətə Yusif Sərracın gətirilməsini təklif edir.

B) Xacə Mübarək – Zici-Uluğbəyi nəzərdən keçirmək üçün bir saatlıq möhlət istəyir.

C) Sərdar Zaman xan – şahdan münəccimbaşını öldürməməsini xahiş edir.

D) Yusif Sərrac – insanların rifahını yaxşılaşdıran islahatlar həyata keçirir.

(1) **26. Bu ədiblərdən hansı 1869-cu ildə məktəb açmış, yenilikləri ilə yadda qalmışdır?**

A) X. Natəvan.

B) M. F. Axundov.

C) N. Vəzirov.

D) S. Ə. Şirvani.

(1) **27. M. Ə. Sabirin “Əkinçi” şeiri ilə bağlı doğru fikri müəyyənləşdirin:**

A) Əkinçi öz hüququnu müdafiəyə qalxdığı üçün mülkədarın hiddətinə tuş gəlir.

B) Əkinçinin təbii fəlakətlərlə bağlı düşdüyü çətinlik onun dili ilə mülkədara çatdırılır.

C) Mülkədarın danışığından kəndlini insan yerinə belə qoymadığı məlum olur.

D) Təbii fəlakətin qıtlığa səbəb olduğunu biləndə mülkədarın qəlbi bir az yumşalır.

(1) **28. H. Cavidin "İblis" əsərində İblisin dediyi aşağıdakı sözlərin əsas mənası hansı bənddə daha dəqiq ifadə olunub?**

*Siz nə qədər məndən uzaqlaşsanız,*

*Yer deyil, əflakə uçub qaçsanız,*

*Qarşılaşıb birləşiriz daima,*

*Ayrı deyil, çünki biriz daima.*

A) İnsan başqa planetlərə qaçmaqla İblisdən qurtula bilər.

B) İblis insanın içindədir, o, insandakı murdar nəfsdir.

C) İblis uzaqda deyil, insanların lap yanındadır.

D) İblis insanın mənəvi ucalığı ilə qarşıdurmadan qaçır.

(1) **29. Elçinin “Talvar” əsərini tut ağacının iki yerə parçalanması ilə başlamasında *əsas* məqsədi nədir?**

A) Hadisələrin mərkəzində duran qocalıq və ömür payı mövzusuna simvolik giriş etmək.

B) Həyatin köhnəliyini və baxımsız qaldığını simvolik detallarla oxucuya çatdırmaq.

C) Məhəllə sakinlərinin ağacın meyvəsinə olan böyük marağını təsvir etmək.

D) Təbiət hadisələrinin insan taleyinə göstərdiyi mənfi təsirləri vurğulamaq.

(1) **30. M. Seyidzadənin “Əqrəb və Çanaqlı bağa” əsəri hansı atalar sözü ilə səsləşir?**

A) Ağıllı düşmən nadan dostdan yaxşıdır.

B) Birlik harada, dirilik orda.

C) Nə əkərsən, onu da biçərsən.

D) Yaxşılığa yaxşılıq hər kişinin işidir.

(1) **31. Hansı bənddə verilmiş əsərlərin ardıcıllığı təqdim olunan ardıcıllıqla üst-üstə düşür?**

**I.** Qədim dövr Azərbaycan ədəbiyyatı

**II.** Orta dövr Azərbaycan ədəbiyyatı

**III.** Erkən yeni dövr Azərbaycan ədəbiyyatı

**IV.** Sovet dövrü Azərbaycan ədəbiyyatı

A) “Avesta”, “Koroğlu”, “ Oqtay Eloğlu”, “Heydərbabaya salam”.

B) “Avesta”, “Töhfətül-İraqeyn”, “Heydərbabaya salam”, “Oqtay Eloğlu”.

C) “Xosrov və Şirin”, “ Dəhnamə”, “Hayıf ki, yoxdur…”, “Gələcək gün”.

D) “Xosrov və Şirin”, “Töhfətül-İraqeyn”, “Dəhnamə”, “Aldanmış kəvakib”.

(1) **32. Nümunədə işlənmiş bədii ifadə vasitəsini müəyyən edin:**

*Namərdi özümə mən dost eylədim,*
*Yolunda canıma çox qəsd eylədim,*
*Söyüddən bağ saldım, peyvəst eylədim,*
*Almasın, heyvasın, narın görmədim.*

A) Kinayə.

B) Litota.

C) Anafora.

D) Təzad.

(1) **33. S. Vurğun və R. Rza yaradıcılığı üçün ortaq cəhəti müəyyən edin:**

A) Eyni müəllifin əsərini tərcümə etmişlər.

B) İlk şeir kitabları eyni ildə nəşr olunmuşdur.

C) Nəsrlə yazılmış əsərləri də vardır.

D) Tarixi mövzuda səhnə əsəri yazmışlar.

(1) **34. Mirzə İbrahimovun "Azad" hekayəsində Fərdanın** *"Yazıq, min yazıq bizə baxıb "övladlarım var" deyən vətənə!"* **– nidasını doğuran əsas səbəb nə idi?**

A) Azadın cəbhə bölgəsindən gələn xəbərlərə qarşı göstərdiyi soyuqqanlılıq.

B) Azadın dərzi dükanındakı iş şəraitinə dözməsi və baş verənlərə qarşı susqunluğu.

C) Gənclərin işsizlikdən doğan fəaliyyətsizliyi və faydasız həyat tərzi sürmələri.

D) Təbriz mühitində milli azadlıq ideyalarına qarşı olan ümumi inamsızlıq.

(1) **35. Qılman İlkinin “İntiqam” əsərindəki Xəzangül obrazına aid doğru xüsusiyyətləri müəyyən edin:**

A) Cəsur və zəhmətkeş.

B) Fədakar və təvazökar.

C) Qürurlu və dözümlü.

D) Mərhəmətli və intizamlı.

# BƏDİİ MƏTNİN DƏRK EDİLMƏSİ (15 BAL)

**Fidan Vahidin "Daş sancısı" hekayəsini diqqətlə oxuyun və tapşırıqları yerinə yetirin.**

## DAŞ SANCISI

Gündüz qarnını o qədər təpikləmişdim ki, düşünürdüm, körpəsi ölü doğulacaq...

Növbətçi olduğum gecələr gözümün çimirini almağa çalışırdım. Orada yuxuya getmək asan deyildi. Bütün günü zirzəmidə təpik döymək adamı çərlədirdi. Axşamlar isə gün ərzində olmazın işgəncələr verdiyin insanlarla yanaşı otaqlarda yastığa baş qoymalıydın. İnilti səsləri altında yatmağa öyrəşmişdim.

Burnumu qan qoxusu tutmuşdu. Hayana dönsəydim, hər şeyi didilmiş görürdüm. İllərimi udan bu məhbəsdə, gecənin bir aləmində, zarıltı sədaları altında, qaranlıq zirzəmidə məhbuslarla aramızdakı fərqi sorğu-suala çəkirdim.

"Biz azadıq, onlar isə məhkum. Biz hürr iradəmizlə, onlar isə bizim əmrimizlə hərəkət edirlər. Onların əllərində, ayaqlarında paslı qandallar var. Bizim əllərimiz açıqdır. Amma indi istəsəm də, otağımdan çıxıb ürəyimdən keçəni edə bilmərəm", – deyə düşünürdüm.

21 nömrəli məhkumun qışqırığının bütün zindanı başına götürdüyü o gecə gedib kamerasına baş çəkə, halını soruşa bilməzdim. Mənim əl-ayağımı kim bağlamışdı?

Bağırtı səsi kəsilmir, getdikcə daha da güclənirdi. 21 nömrəli kameradan yüksələn nalə qulaqlarımızı batırırdı. Səs kəsilənə qədər gözlədim, sonra ayağımı sürüyə-sürüyə kameraya getdim. Qapını açanda üfunət üzümü vurdu. Ürəyim bulandı. Qaranlıq boşluğa bir-iki addım atmışdım ki, ayağım yumşaq bir şeyə ilişdi.

Qadın meyiti idi.

Yerdə 21 nömrənin cansız bədəni uzanmışdı, ayağının ucunda isə körpə bir oğlan uşağı ağarırdı. Nəzarətçilər tezliklə meyiti sürüyüb kameradan çıxardılar. Uşağı ölünün əynindən çıxan cır-cındıra bələyib qucağıma verdilər. Körpə diri doğulmuşdu. Ürək çırpıntılarını əllərimlə hiss edirdim. Əlimi boğazına apardım. Bir anlıq duruxdum, yerimdə səndələdim.

O, gecənin bir aləmi zülmətdə özünü doğmuşdu...

Məhbəsdə heç kəsin kimliyi olmur. Orada hər şey eyni qatılıqda qaranlığın içində yaşayır. Həmin gecə aramıza yeni bir nəfəs qatıldı. Məhbəs ilk gündən onu da uddu.

21 nömrəli uşaq nəzarətimiz altında xadimələrin himayəsində böyüməyə başladı. Çığırtısı gündüzləri qaraqışqırığa, gecələri iniltilərə qarışdı. Bir yaşı olmamış bağıra-bağıra dil açdı. Ayaq altında sürünə-sürünə yeriməyi öyrəndi. Bir göz qırpımında yöndəmsiz bədəni formalaşdı.

Böyüdükcə məhkumlarla aramızda get-gəldə qaldı. Məhkumların zəhərli dili onu korlayırdı. Bəzən uzaqdan gözümə sataşırdı: ağzının suyu axa-axa, oğrun-oğrun kameralara baxırdı. Nəzarətçilər tez təpik altına salıb döyürdülər. Mən də bir dəfə əzişdirmişdim onu.

Məhbəsin qaydası var idi: heç kim boş danışığa yol verə, məhbuslarla söhbət edə bilməzdi. Bir dəfə onu bir məhbusla danışan yerdə tutdum. Tutuldu. Əlimdəki taxta ilə qarnına necə vurdumsa, səndələyib yıxıldı. O, daş kimi susmağı yaxşı bacarırdı. Dinmədi. Mənə ağır gələn hər şey zamanla onun xatirəsinə çevrilirdi.

Hərənin ağzından bir şey öyrənirdi. Öyrəndiklərini yerində işlətməkdə çətinlik çəkirdi. Xadimələr yemək gətirəndə bağırırdı:

– Sağ ol, it balası it!

Uğunub gedirdik. Özümüzü tez yığışdırırdıq ki, gülməyə adət eləməsin. O, bizim kölgəmizdə dünyadan bixəbər boy atırdı. Məhbuslarla aramızda tarım çəkilmiş kəndirin üzərində gəzirdi. Ani diqqətsizlik bəs idi ki onu itirək… itirim.

O böyüdükcə, biz də hərəkətlərində, gülüşündə, səsində, söyüşündə böyüyürdük. Zindan gün-gündən kiçilirdi...

Darıxmağın meydan suladığı gecələrdən birində yanına getdim. Vaxt öldürmək üçün... Yerində dikəldi, mənalı-mənalı gözlərimə baxdı. Üzümü çevirdim. Onunla təkbətək qalanda məni tər basırdı. O isə gözünü zilləyib baxırdı. Qəfil sözə başladım:

– Adam yaman darıxır e...

– Nə üçün?

– Nə üçün yox, kim üçün...

– Cəzalandır!

– Kimi, zırrama?

– Günahkarları.

– Günah kimdədi ki?

Susduq.

O gecə yuxum daş kimi sallandı yaxamdan.

Yerin altında, məhbuslarla nəzarətçilərin arasında bir uşaq yaşayırdı. Və o uşaq mənim himayəmdə idi. Bunu çox sonralar başa düşdüm. Zamanla işimdən əvvəlki zövqü ala bilmədim. İçim içimi yeyirdi. Bilirdim, həmin gecədən sonra məndə nəsə dəyişmişdi.

Bəzən düşünürdüm: məhbəsdəkiləri bura tıxayan biri var idi… Bəs 21 nömrəli uşağı kim məhkum etmişdi?

Kaş anasının qarnındaca tələf olaydı. Adamlar doğulanda işıqlı dünyaya göz açırlar, o isə qaranlığa doğulmuşdu.

İşıqlı səhərlər...

Axı mən işıqlı səhərləri görmüşdüm.

Düşüncələrim məni uzaqlara apardı. Uşaqlığımın, ilk gəncliyimin keçdiyi çay qırağına.

Günəşin ipisti şəfəqləri bədənimə sığal çəkir. İstidir. Çay yenə məni qoynunda gəzdirir... Suyun üzündə hər şeydən uzaq asudə-asudə üzürəm. Əmim körpünün üstündə oturub mənə göz qoyur ki, onun kimi yaxşı üzməyi öyrənim.

Birdən əmimi görmürəm, o, gözdən itir. Nəsə məni dibə doğru çəkir...

Uşaq kəmərimi dartışdırırmış. Belimdən sallanan açarları açıb ona verirəm ki, başı qarışsın. Bir müddət açarlarla oynayır, sonra divara yaxınlaşır. Açarın ucunu divara toxundurub oyuqlar açmağa başlayır. Açar suvağın üstündə hərəkət etdikcə xırçıltı səsi bədənimi gizildədir. Toxunmuram. Əlləri əsə-əsə, gücü yetdiyi qədər oyur daşın qarnını. Divar oyuq-oyuq olur. Hər dəfə açarın ucu daha dərinə batır. Qadına oxşayan divarın içində nəsə axtarır.

O an içimdə nəsə həmişəlik dəyişir. Bir qərarın astanasında olduğumu anlayıram.

Dönüb uzun-uzadı üzümə baxır. Üst-başı, sifəti toz-torpaq içindədir. Baxışlarına tab gətirməyib başımı aşağı salıram.

Həmin gün mən ondan birdəfəlik qurtuldum.

Otağıma qayıdıb əşyalarımı yığışdırdım...

## Təlimat

**Tapşırığı yerinə yetirmək üçün mətni diqqətlə oxuyun. Suallara mətnin məzmunu tamamilə aydın olduqdan sonra cavab verməyə başlayın.**

**Cavablardan yalnız birini seçin və cavablar vərəqinin müvafiq xanasında X işarəsi ilə qeyd edin.**

(1) **36. Hekayənin girişində nəzarətçinin keçirdiyi hisslər hansı mənəvi ziddiyyəti üzə çıxarır?**

A) Dustaqların fiziki ağrıları ilə öz mənəvi boşluğu arasındakı fərqi.

B) Dustaqların mənəvi asılılığı ilə özünün mütləq azadlığı arasındakı bağı.

C) Nəzarətçi ilə məhkumun əslində eyni mənəvi zindanda olmasını.

D) Sistemin qəddarlığı ilə öz mənəvi dəyərləri arasında qalmasını.

(1) **37.** *“Mənim əl-ayağımı kim bağlamışdı?”* **sualı ilə qəhrəman nəyi ifadə edir?**

A) Digər nəzarətçilərin ona mane olması nəticəsində yaranan hirsini.

B) Kameranın qapısını aça bilmədiyi üçün keçirdiyi fiziki acizliyi.

C) Məhbus qadının çığırtısından qorxaraq hərəkətsiz qalıb donmasını.

D) Qaydaların və sistemin onun iradəsini tamamilə iflic etməsini.

(1) **38.** *“21 nömrəli uşaq”* **ifadəsi mətndə hansı məqsədlə istifadə olunmuşdur?**

A) İnsanın fərdiyyətinin məhvi və hər kəsin sadəcə rəqəmə çevrilməsini ifadə etmək.

B) Nəzarətçinin uşağa qarşı müsbət davranışlarını və rəsmi münasibətini göstərmək.

C) Uşağın valideynlərinin kimliyini rəsmi sənədlərdə gizli saxlamaq.

D) Zindanda uşaqlara qarşı xüsusi bir intizamın mövcudluğunu bildirmək.

(1) **39. Uşağın zindanda söyüşlərlə dil açması oxucuya hansı mesajı ötürür?**

A) Cəmiyyətdən təcrid olunmuş fərdin özünüifadə vasitəsi kimi yalnız aqressiyanı seçməsini.

B) İnsan fitrətinin doğulduğu mühitin mənəvi rənginə boyanmasının qaçılmazlığını.

C) Məsumiyyətin amansız mühit tərəfindən ilk gündən etibarən məhv edilməsini.

D) Zindan divarlarının insan dilini və düşüncəsini çərçivəyə salan ən böyük maneə olmasını.

(1) **40. Nəzarətçinin uşağa qarşı olan münasibəti zamanla hansı səbəbdən dəyişir?**

A) Uşağın dözümlü xarakterinə və mühitə uyğunlaşmasına hörmət etməsi.

B) Uşağın hər an itirilə biləcək zəif bir varlıq olduğunu dərk etməsi.

C) Uşağın itaətkar olmasına görə nəzarətçinin əmrlərini yerinə yetirməsi.

D) Uşağın məsumluğunda öz itirilmiş vicdanını və keçmişini tapması.

(1) **41. Müəllifin uşağın divarı oymasını** *"daşın qarnını oymaq"* **kimi təsvir etməsində əsas məqsədi nədir?**

A) Divarı ana bətni ilə eyniləşdirərək uşağın ana şəfqətinə olan ehtiyacını göstərmək.

B) Divarın arxasındakı azadlığa qovuşmaq üçün göstərilən ümidsiz cəhdi vurğulamaq.

C) Uşağın fiziki gücünün və inadkarlığının hansı həddə olduğunu nümayiş etdirmək.

D) Zindan divarlarının keçilməzliyini və uşağın bu mühitdəki çarəsizliyini əks etdirmək.

(1) **42.** *“O gecə yuxum daş kimi sallandı yaxamdan”* **cümləsində hansı bədii təsvir vasitələri işlənmişdir?**

A) Metafor və epitet.

B) Metafor və təşbeh.

C) Metonimiya və epitet.

D) Metonimiya və təşbeh.

(1) **43. Nəzarətçinin yuxuda gördüyü** *“çayda üzmək”* **səhnəsi hekayənin ümumi ruhu ilə necə səsləşir?**

A) Azadlığın işıqlı dünyası ilə zindanın qaranlığı arasındakı təzadı əks etdirir.

B) Əmisinin ona verdiyi dürüstlük dərslərinin unudulmadığını bildirir.

C) İnsanın keçmiş xatirələrinin çətin anlarda ona mənəvi güc verdiyini göstərir.

D) Suyun şəffaflığı ilə zindanın qaranlığı arasındakı ziddiyəti göstərir.

(1) **44.** **Nəzarətçinin hekayənin sonunda əşyalarını yığışdırıb işdən ayrılması nəyin göstəricisidir?**

A) İşgəncə verdiyi insanların xatirələri ilə eyni məkanda yaşamağın qeyri-mümkünlüyünü dərk etməsinin.

B) Özünün də bir məhkum olduğu mənəvi zindandan qurtulmaq üçün atdığı qətiyyətli addımın.

C) Uşağın taleyinə qarşı duyduğu acizlik hissinin onu vəzifə borcundan tamamilə soyutmasının.

D) Zindan mühitinin gətirdiyi psixoloji gərginliyə və darıxma hissinə artıq tab gətirə bilməməsinin.

(1) **45. Aşağıdakılardan hansı əsərin əsas ideyasıdır?**

A) Cinayət törətmiş insanların həbsxana şəraitində islah olunması çətindir.

B) Həbsxana nəzarətçilərinin psixoloji gərginliyinin vaxtında həlli vacibdir.

C) Valideynsiz böyüyən uşaqlar cəmiyyət üçün potensial təhlükə yaradır.

D) Zülmət mühitində belə bir məsum insan vicdanını oyatmaq qüdrətinə malikdir.

(5) **46. Yazı işi:**

*Əsərin baş qəhrəmanını səciyyələndirin*

*Nəzərə alın: 50 sözdən az olan cavab yoxlanılmayacaq!*